Redaksiyadan

Azərbaycan kino tarixində əvəzsiz operator, rejissor, ssenarist olan, kinomuzun inkişafı üçün böyük, tarixi işlər görən, Azərbaycanın və Çeçen-İnquş Respublikasının Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq artisti, SSRİ və Azərbaycan Respublikasının dövlət mükafatları laureatı Rasim Mirqasım oğlu Ocaqovun 2023-cü ilin noyabr ayının 22-də 90 illik yubileyidi. Əlbəttə, bu yubiley dövlət səviyyəsində yüksək formada keçiriləcək. Çünki belə fenomen, klassik sənətkarları heç vaxt unutmaq olmaz. Xalqımız onları daha yaxşı tanımalı və onların yaradıcılığını gələcək nəsillərə ötürməlidir.

Azərbaycan Milli Kinosunun 125 illiyi və Rasim Mirqasım oğlu Ocaqovun 90 illik yubileyi ilə əlaqədar avqust ayından başlayaraq, qəzetimizin səhifələrində məşhur rejissor, operator, ssenarist Rasim müəllimə həsr olunmuş yazıları çap edirik. Bütün yazarlardan və sənət adamlarından xahiş edirik ki, Rasim Ocaqovla bağlı yazılarını, xatirələrini bizim qəzetin emailinə, ya da Əməkdar incəsənət xadimi, yazıçı-rejissor Ağalar İdrisoğlunun emailinə-agalar-idrisoglu@mail.ru göndərsinlər və biz həmin yazıları çap edək.

Azərbaycan xalqının bir çox nəsilləri kino ilə tərbiyələnib, kinonun təsiri altında formalaşıb, inkişaf edibdir, Yüksək Mədəniyyətə qovuşubdur.

Heydər Əliyev

Rasim Ocaqov fenomeni

(Rasim Ocaqovla birgə işləyən kinorejissor, "Tərəqqi" medallı Zəfər Murtuzovun onun haqqında bilmədiyimiz, yazılmayan maraqlı fikirləri, xoş təəssüratları, sevgi dolu xatirələri)

(Əvvəli ötən saylarımızda)

Rasim Ocaqov yaratdığı studiyaya niyə "Ocaq" adı vermişdi

-Rasim Ocaqov, Sovetlər Birliyi dağılandan sonra "Ocaq" adlı studiya yartdı. Bu, necə oldu?

-Qoy oxucular da bilsin ki, Rasim Ocaqov əslən lənkəranlıdır. Yəni onun atasigil Lənkəranda çox böyük nəsildirlər. Atası Mirqasım kişi və anası Səmayə xanım da, Azərbaycan Dövlət Tibb İnstitutunda bir yerdə oxuyublar. İnstitutu bitirəndən sonra təyinatla Şəkiyə işləməyə gediblər. Mirqasım həkim ağ ciyər üzrə, Səmayə həkim genekologiya üzrə mütəxəssis olublar. Sonra Şəkidə ailə qurublar. Elə orada da yaşayıblar. Mirqasım həkim də həyatını Şəkiyə bağlayıb. Orada Vərəm xəstəxanasının baş həkimi kimi çox yaxşı işləyib. Böyük hörmət qazanıb. İndi də Şəkidəki Vərəm Xəstəxanası Mirqasım Ocaqovun adınadır. Onlar seyiddirlər. Əslən Ərdəbildən Lənkərana gəlmədirlər. Bilirsiniz ki, Şah İsmayıldan sonra seyidlərə və şahsevənlərə qarşı Nadir şah tərəfindən böyük hücum olub. Ona görə də onlar Ərdəbildən başqa yerlərə köçməyə məcbur olublar. Onların nəsli də Lənkərana gəlib və orada məskunlaşıblar. Onlar Lənkəranda böyük ocaqdırlar. Hamı həmin ocağı, onların ulularını dəfn olunan yeri ziyarətə gəlir. Rasim Ocaqov isə Şəkidə dünyaya gəlmişdi. Ömrünün son gününə kimi də Şəki ləhcəsində danışırdı. O, orta məktəbi bitirəndən sonra Moskvaya gedib, Dövlət Ümumittifaq Kinomatoqrafiya İnstitutunun kino operatorluğu fakültəsinə daxil olub. Oranı bitirəndən sonra Bakıya gəlib və kinostudiyada operator vəzifəsində işləyib. Sonra Azərbaycan Dövlət İncəsənət İnstitutunun rejissorluq fakültəsini və sonra Moskvada Dövlət Ümumittifaq Kinomatoqrafiya İnstitutunda iki illik rejissorluq kursunu bitirib. Rasim Ocaqovun atası və anası Şəkidə dəfn olunublar. Bu gün Şəkiyə gedib, yaşlı insanlardan Mirqasım həkimi soruşsanız sizə ən azı bir saat onun haqqında xoş sözlər deyərlər. Bir maraqlı faktı da deyim ki, Mirqasım həkim əmək haqqını alanda xəstələrə pul verirdi və deyirdi ki, "gedin özünüzə dərman alın". Bax, belə bir müqəddəs kişi idi Mirqasım həkim. Qaldı "Ocaq" studiyasını yaratması. Məhz Ocaqovlardan olduğuna görə, bu nəsli, kökü yaşatmaq üçün yaratdığı studiyaya bu adı qoymuşdu. Orada, həmin studiyanın adı ilə yaxşı kinofilmlər çəkdi.

-Rasim Ocaqov "Otel otağı" kinofilmini çəkəndə deyirlər ki, ikinci dəfə infarkt olub. Elədirmi?

-Bəli. Elədi. Həmin kinofilm çox ağır bir mövzu idi. Orada dəhşətli bir atmosfera vardı. Bu hadisələrin hər birini o, rejissor kimi yaşayırdı. Həmin səhnələri təxəyyülündə görüb, aktyorlarla işləyir və çəkirdi. Çəkiliş vaxtı ürəyindən şikayət edirdi. İlk dəfə infarkt olanda onu müalicə eləyən həkim yenə də onu müayinə eləyirdi. Dərmanlar yazırdı. Və xahiş edirdi ki, Rasim müəllim siqaret çəkməsin. Əlbəttə, Rasim müəllim özü ilə bacara bilmirdi. Yalnız onu eləmişdi ki, gündə dörd qutu yox, üç qutu çəkirdi. Onda çox pis bir adət, vərdiş vardı. Səhər yeməyi yemirdi. Günorta da yemirdi. Ancaq çay içir və siqaret çəkirdi. Yalnız axşam yemək yeyərdi. Yəni gündə bir dəfə yemək yeyərdi. Özü də qızardılmış yemək yeyərdi. Hətta yediyi kotlet də hökmən kömür kimi qızardılmalı idi. Qızardılmış yemək ona qəti olmazdı. Bax, bu da onun ürəyinə, orqanizminə çox pis təsir eləyirdi. Əslində onun orqanizmi çox sağlam idi və bu qədər çətinliklərin, problemlərin dəf olunmasında, saatlarla işləməkdən belə orqanizmi yorulmurdu. Yəni ürəyi, bədəni bütün bunlara tab gətirmirdi. Baxmayaraq ki, Rasim Ocaqovun çəkdiyi bütün kinofilmlər çox dramatik, yüksək konfliktləri olan filmlərdir. Amma mənə elə gəlir ki, "İstintaq" və "Otel otağı" kinofilmləri mövzu etibarı ilə daha ağır atmosferli və daha böyük konfliktli filmlərdir. Burada rejissorun üzərinə böyük yük düşür və rejissordan daha çox peşəkarlıq, məharət, təxəyyül tələb eləyir. Rasim müəllim bunların öhdəsindən böyük ustad kimi gəlirdi və bütövlükdə yaradıcı qrupu da bu atmosferaya kökləyirdi. Bu da geniş ürəyinin və təşkilatçılığının hesabına olurdu.

O, ailəsinə çox bağlı insan idi

-Belə deyirlər ki, Rasim Ocaqov ailəsinə çox bağlı insan olub. Elədirmi?

-Bəli, elədi. O, həyat yoldaşı Sveta xanımla "Onun böyük ürəyi" kinofilminin çəkilişi zanamı tanış olmuşdu. Rasim Ocaqov həmin kinofilmin operatoru idi. Həmin vaxt Sveta xanım orta məktəbdə oxuyurdu. Kinofilmdən sonra onlar ailə həyatı qurdular. Sveta xanım sonra Ali məktəbin filologiya fakültəsini bitirdi. Yaxşı filoloq idi. Onların iki qızı var. Birinci qızı Kəmalə xanım filoloqdur. İkinci qızı Cəmilə xanım jurnalistdir. Hər ikisi yüksək səviyyəlidirlər. Rasim Ocaqovun ailəsi çox ziyalı bir ailədir. Özü başda olmaqla bütün ailə üzvləri həmişə dövlətə, dövlətçiliyə xidmət ediblər. Rasim müəllimin üç nəvəsi var. Böyük qızının bir övladı və kiçik qızının iki övladı var. Bu gün baxmayaraq ki, həmin nəsildə Rasim Ocaqovun yolunu davam etdrən yoxdur. Qızı Cəmilə xanım jurnalist kimi "Trend"də Cəmilə Ocaqova imzası ilə çox yaxşı yazıları çap olunur. Kəmalə xanım bir müddət filologiya sahəsində çalışıb. Sonra dövlət qulluğunda işə keçib. Ailə və Uşaq Problemləri Komitəsində ən aparıcı şöbələrdən birinə rəhbərlik edir. Böyük kürəkəni filoloqdur. İkinci kürəkəni isə mühəndisdi. O, hər iki qızını öz canından çox sevirdi. Böyük qızının qızı Nərminə onun yanında böyüyüb. Rasim Ocaqov həmin nəvəsinə daha çox bağlı idi. Onunla nəfəs alırdı. Əfsuslki, Rasim Ocaqov həmin nəvəsinin toyunu görə bilmədi...

-Siz Rasim Ocaqovu təkcə bir sənətkar kimi yox, həm də böyük qardaş, ata əvəzi kimi sevibsiniz. Bu sevgi və böyük hörmət necə yarandı?

- Təsəvvür eləyin ki, mən cəmi 17 il valideynlərimin yanında olmuşam. Amma 1975-ci ildən 2006-cı ilədək Rasim Ocaqovla bir yerdə olmuşam. Onunla bir yerdə işləmişəm. Mübaliğəsiz deyim ki, o, mənim böyük müəlimim, həyat amalım olub. Mən həyatda ondan çox şey öyrənmişəm. Bəli. Onu böyük qardaş və valideyn kimi sevmişəm. O da məni çox istəyirdi. Bir gün mənsiz qalmırdı. Mənə yeznə yox, "oğul" deyə müraciət edirdi. İşimiz olmayanda da zəng edirdi ki, gəl, söhbət edək. Otuz il demək olar ki, bütün günü bir yerdə olurduq. Çəkilişlər aparırdıq və sonra çəkdiyimiz kinofilmləri montaj edirdik. Çəkilişdən sonra montaj və səsləndirmə də çox böyük səəb gərginliyi getirən işdir. Bu da böyük səbr tələb eləyir. Hər çəkiliş, montaj vaxtı tez-tez problemlərlə üzləşirdik. Bilirsiniz ki, kino çəkmək çox ağır işdir. Desəm ki, cəhənnəm əzabıdır, daha dözgün olar. Onu da vurğulayım ki, ömrünün axır dəqiqələrinə kimi Rasim Ocaqovla bir yerdə olmuşam. Yadımdadır ki, kinostudiyaya idi. Həmin axşam onlara getməmişdim. Kinostudiyadan mənə zəng vurdular ki, "Zəfər, özünü tocili çatdır. Rasim Ocaqovun vəziyyəti pisləşib. Evdədi". Bax, indi bizim oturduğumuz Hüseyn Cavid parkının ön tərəfindəki binada ikinci mərtəbə yaşayırdı. Başılovlu onlara getdim. İkinci mərtəbəyə qalxanda ayaqlarım tutuldu...

Qeyd: (O, artıq özünü saxlaya bilməyib, hönkürtü ilə ağladı. Onun hönkürtü ilə ağlamasından və Rasim Ocaqovu bir sənətkar və insan kimi sevdiyimizdən mən də, qardaşım oğlu Mətləb də çox pərişan olduq. Kövrəldik. Bir müddət sükut yarandı. Sonra yenidən Zəfər bəy söhbətinə davam elədi.)

Zəfər Murtuzov

-Onun ölüm səhnəsini televiziyada danışanda da mən kövrəlmişdim. Onlar elə yaxşı eləyib, həmin səhnəni vermişdilər. Mən həmişə ələ bilmişəm ki, Rasim müəllimin qızı Kəmalə xanım mənim bacımdır. Onun xeyir işində Rasim müəllim bütün cehizləri almağa məni aparırdı və məsləhətləşirdi ki, nə alaq? Hər fikrini mənimlə bölüşürdü. Çünki mən həmin sahələri yaxşı bilirəm. Əfsus ki, Rasim Ocaqov aramızdan çox tez getdi. Çünki onun hələ tamaşaçılara bəxş edəcəyi, göstərəcəyi çox-lu işlər, planında olan kinofilmlər vardı. Dövlətimiz də onun bütün işlərini, xidmətlərini yaxşı dəyərləndirib. Adi bir missal deyim. Aleksandr Kalyagin keçmiş Sovetlər Birliyində teatr və kino sahəsində çox tanınan aktyor idi. O, ilk dəfə SSRİ dövlət mükafatını Rasim Ocaqovun çəkdiyi Azərbaycan Dövlət Kino-Studiyasının istehsalı olan "İstintaq" kinofilminə görə almışdı. Kalyagin həmişə deyirdi: "Mən Azərbaycana borcluyam. Çünki mən Sovet kinosunun inkişafında, parlamasında böyük işlər görsəm də, amma SSRİ dövlət mükafatını Azərbaycan kinosu ilə almışam. Həm də özümü xoşbəxt sənətkar hesab edirəm ki, Rasim Ocaqovun quruluşunda bir neçə Azərbaycan filmində çəkilmişəm. Həmin kinofilmlər və orada oynadığım rollar mənim üçün çox doğmadır, əzizidir". Aleksandr Kalyagin Rasim Ocaqovun çəkdiyi "İstintaq", "Bağlı qapı", "Özgə ömür" kinofilmlərində çox yaxşı rollar oynayıb. "Özgə ömür" kinofilmi Azərbaycan Neft Akademiyasının rektoru İbrahimov haqqında idi. Orada rektor rolunu Kalyagin çox peşəkar səviyyədə oynayıb. Hacı İsmayılov da institutun müəllimi Həsənov soyadlı müəllimi çox gözəl yaradırdı. Həmin kinofilmdə də yaxşı aktyor ansambli var. Hamısı bir-birindən maraqlı oynayırdı. Rasim Ocaqov keçmiş Sovetlər Birliyində tanınan bir neçə məşhur aktyorları da çəkib. Amma heç vaxt onların arxasında gizlənməyib. Onlarla lazım olan kimi işləyib. Hətta Moger Mıkırtçyanı da kinoya dəvət eləmişdi. "Bağlı qapı" filmində bir erməni rolunu oynayırdı. Onu özündən müştəbeh erməni kimi çəkmişdi. Kino çəkilib qurtarandan və Moger Mıkırtçyan bu filmə baxandan sonra dedi: "Ocaqov mən kinoya baxandan sonra başa düşdüm ki, sən niyə məni burada çəkibsən. Ermənilərin özlərindən müştəbeh olduğunu göstərmək istəyibsən. Mən bu fikrinə görə səninlə tanda qəstrolları həmişə anşlaqla keçirdi. İki millət bir-birilə çox mehriban yaşayırdı. Axı bizim aramıza bu nifaqı kimlər saldı? Allah onlara lənət eləsin". Hətta deyirdi ki, "mən Moskvaya Mayakovski adına Akademik Dram Teatrına işləməyə gələndə və orada özümə nifuz qazanmağımda Heydər Əliyev mənə çox köməklik eləmişdi". Əlbəttə, biz heç vaxt ermənilərin faşist əməllərinə görə, 1905-1907-ci illərdəki, 1918-20-ci illərdəki, 1947-53-cü illərdəki və sonuncu 1988-1990-cı illərdəki qırğınlara görə onlara qarşı sərt olmamışıq. Bəxtiyar Vahabzadə deyən kimi,"biz həmişə unutqan xalq olmuşuq". İndi heç olmasa bundan sonra erməni gavurlarının törətdiyi cinayətləri yaddan çıxarmayaq. Xocalı, Ağdaban, Meşəli, Malbəyli və başqa dəhşətli hadisələri unutmayaq. Onlara qarşı düşmən mövqeymizi qoruyub saxlayaq. Onlara sübut edək ki, biz hər sahədə onlardan üstünük. Bunu Ali Baş Komandanımız cənab İlham Əliyev 44 günlük Vətən müharibəsilə sübut elədi. Biz də öz elmimiz, incəsənətimiz, ədəbiyyatımız, idmanımız vasitəsilə sübut eləməliyik. Çox möhtəşəm kinofilmlər çəkməliyik. Axı biz Qafqazda ən qədim xalqlardan biriyik. Bunu tarix də sübut eləyir. Ermənilərin ən kiçik uşağı da deyir ki, türklər onların düşmənidi. Amma bizim daxilimizdə kin, küdurət olmadığına görə belə demirik. Lakin biz də həmişəlik yadımızda saxlamalıyıq ki, daha ermənidən bizə dost olmaz. Erməni heç vaxt bizə yaxşı olmaz.

Rasim Ocaqov azərbaycanlı aktyorları çox sevirdi

-Bəzən ağzıgöyçəkləri deyir ki, Rasim Ocaqov çəkdiyi kinofilmlərdə başqa millətlərin aktyorluğuna dah çox üstünlük verirdi. Elədirmi?



Zəfər Murtuzov, Rasim Ocaqov və Nadir Əliyev

- Bu fikir kökündən səhvdir, Rasim Ocaqov çəkdiyi filmlərdə Azərbaycan xalqını və aktyorlarını həmişə yüksək səviyyədə tuturdu və görürdü. O, Şəkiyə çox bağlı insan idi. Şəkini və onun camaatını heç vaxt yaddan çıxarmırdı. Hətta "Qatır Məmməd" kinofilmində Yusif Vəliyevin dili ilə deyirdi: "Ay bala, mənə bir Şəki pitisi gətir". İndi qayıdıram sizin sualınıza. Bəli. Bəzi ağzıgöyçəklər deyir ki, "Rasim Ocaqov öz aktyorlarımız ola-ola niyə kənardan aktyorlar, aktrisalar gətirirdi?" Onlar bu fikirlərilə yanılırlar. O, çoxlu azərbaycanlı aktyorları kinolarında çəkib. Yusif Vəliyevi, Məmmədrza Şeyxzamanovu, Həsənağa Turabovu, Həsən Məmmədovu, Şahmar Ələkbərovu, Sənəndər Rzayevi, Rasim Balayevi, Hacı İsmayılovu, Foxrəddin Manafovu, Şəfiqə Məmmədovanı, Şükufə Yusupovanı, Nuriyyə Əhmədovanı və onlarla başqa cavan aktyorları çox sevirdi. Həmişə də kinofilmlərində çəkirdi. Həmin aktyorlarla çox ciddi işləyirdi. Sizə bir misal deyim: "İstintaq" kinofilmində Həsən Məmmədova Aleksandr Kalyagin səhnəsini çəkəndə həmin çəkilişdə Rasim Ocaqov, operator, mən və bu iki aktyor vardı. Cəmi beş nəfər. Həmin səhnəni Rasim Ocaqov demək olar ki, on dəfə çəkib. Hətta çəkiliş vaxtı hirsindən Kalyaginin burnundan qan açıldı və biz çəkilişi saxladıq.

-Yaxşı yadıma saldınız. Mən Moskvada oxuduğum vaxt SSRİ Teatr Xadimləri İttifaqının yeməkxanasında bir dəfə Aleksandr Kalyaginlə söhbət əsnasında o dedi ki, "bu epizod bizdə alınmırdı. Rasim Ocaqov həmin səhnəni mənə göstərəndə əlini masaya necəvurdusa, başa düşdüm ki, bu epizodu necə oynamaq lazımdı".

-Düz deyir. Bir də həmin kinofilmdə Azərbaycan dilində çox böyük aktyorumuz Sənəndər Razyev də Aleksandr Kalyagini çox möhtəşəm səslə yazıb. Kalyagin Moskvada həmin filmə baxanda dedi ki, " bu aktyor kimdisə, o məndən daha mükəmməl yaradıb bu rolu. Ona görə də mənə yox, gedin ona minnətdar olun". Sənəndər Rzayev doğrudan da fenomen idi. Bu kinofilmdə təkcə çəkilənlər yox, onları Azərbaycan dilində səsləndirənlər də əla aktyorlar idi. Təvazökarlıqdan uzaq olsa da deyim ki, aktyor, aktrisa seçimində mən də Rasim Ocaqova çox köməklik edirdim. Hətta keçmiş Sovetlər Birliyinin kinostudiyalarına gedib, aktyorları, aktrisaları seçib gətirirdim. Özü də çoxu tanınmış idi. Özlərinin "samolyubyası", qonoru vardı. Özlərini dahi hesab eləyirdilər. Onlarla danışmaq, onları yola gətirmək üçün dəridən-qabıqdan çıxırdım. Amma Azərbaycana gələndən sonra, Rasim Ocaqovun çəkilişlərini, aktyorlarla işləməsini, insani münasibətini görəndə çox sevinirdilər ki, nə yaxşı onun kinofilmində çəkilməyə razılaşıblar. Hətta Aleksandr Kalyaginlə Rasim Ocaqov çox yaxın dost idilər. Kalyagin üçün yeməkləri də Rasim müəllimin həyat yoldaşı özü evdə bişirib, göndərirdi. Kalyagin onun bişirdiyi yeməkləri çox xoşlayırdı. Onu da deyim ki, "İstintaq" filmində istifadə olunan bütün əlbəsələr bizim evin əşyaları idi. Hətta orada göstərilən zinət əşyaları belə mənim xanımımın idi və cehizlər bizim evin cehizləridir. Hətta Meral Konratın "Təhminə" filmində istifadə elədiyi əşyaları da mən evdən gətirmişdim. Çünki 1990-cı illərdə kinostudiyada demək olar ki, heç nə yox idi. Biz, kino fədailəri idik. Biz hər gün səhər saat ondan, axşam saat yeddiyə kimi Rasim Ocaqovla bir yerdə olurduq. Çəkilişlər vaxtı da həmişə onun yanında olurdum. Ən kiçik problemli məsələdə məni axtarırdı. Bir dəfə mən işə on beş dəqiqə gecikmişdim və gördüm ki, eyvanda dayanıb məni gözləyir.Əllərini yellədi və gülə-gülə dedi: "Mənim rejissoruma bax də. On beş dəqiqədi onu eyvanda dayanıb gözləyirəm". Söylədim ki, "Ocaqov, gecikmişəm. Bağışla". Sonra dedi:

-Get, çəkiliş qrupunu hazırla. Çəkilişimiz olacaq.

Onun belə bir şəkəri vardı. Bugünkü işi bu gün görürdü və sabaha saxlamırdı. Tez-tez də Məhəmməd Peyğəmbərin bu kəlamını deyirdi: "Bu günkü işi bu gün gör. Sabaha saxlama. Sabah olar, amma sən olmazsan". Bunu hamıdan da belə tələb eləyirdi.

-Deyirlər ki, onun bütün kinofilmlərinin bəstəkarı Emin Sabitoğlu olub.

-Bəli. O, bütün kinofilmlərini bəstəkar Emin Sabitoğlu ilə işləyib. Onlar çox möhkəm dost idilər. Baxmayaraq ki, dost idilər, amma Rasim müəllim öz işində çox tələbkar idi. Rasim Ocaqovun çəkdiyi kinofilmlərə müsiqini yazandan sonra onların evində bir yerdə dinləyirdilər. Həmin musiqilərin ilk yazılışını Rasim Ocaqov bəyənmirdi və məcbur eləyirdi ki, Emin Sabitoğlu həmin musiqiləri bir neçə dəfə yazsın. Yadımdadır ki, axırıncı dəfə Emin Sabitoğlu yazdığı musiqilərin notlarını kinostudiyaya gətirmişdi. Bir piano vardı. Orada çaldı və Rasim Ocaqov qulaq asdı və yenə də iradlarını bildirdi. Emin Sabitoğlu dedi ki, "çox yaxşıdır". Rasim müəllim razılaşmadı və dedi ki, "get, təzədən yaz". Emin Sabitoğlu gedəndən sonra dedim ki, "Rasim müəllim, axı yaxşı yazılıb. Bəs siz niyə bəyənmədiniz?"

Dedi:

-Yaxşı yazıb. Bəyəndim. Amma mən bilirəm ki, Emin Sabitoğlu elə bəstəkardır ki, bundan yaxşısını da yaza bilər. Doğrudan da elə oldu. Bir neçə gündən sonra Emin Sabitoğlu daha yaxşı musiqilər yazıb gətirdi. Qulaq asdıq və tam bəyəndik. O, gedəndən sonra Rasim müəllim xanıma həsr olunub. Az bir vaxtda çox populyar oldu.



Bir fikri də vurğulayım ki, 1990-cı illərdən sonra Rasim Ocaqovdan başqa heç kim şedevr kinolar çəkməyib.

- Mən sizinlə tam razıyam. Onun çəkdiyi hər film böyük sənət əsəridir. Həm ssenarisinə, həm rejissor işinə, həm operator işinə və həm də aktyor oyununa görə.

-Elə götürək "İstintaq" kinofilmini. Burada Rüstəm İbrahimbəyovun ssenarisi, Rasim Ocaqovun rejissor işi və Yevgeni Lebedevin, Aleksandr Kalyaginin, Həsən Məmmədovun, Şəfiqə Məmmədovanın, Rasim Balayevin və başqalarının aktyor oyunlarının hamısı şedevrdir. Azərbaycan Milli kinosunun 125 illiyinə həsr olunan və 2023-cü ilin avqust ayının 2-də Nizami Kino Mərkəzində göstərilən rolikdə gördünüz ki, Heydər Əliyev də öz çıxışında "İstintaq" kinofilmi haqqında çox xoş sözlər dedi. Həmin kinofilm SSRİ-də çox böyük maraqla qarşılanmışdı. Müstəntiqin SSRİ-də yüksək rütbəli insanları istintaq eləməsin in yeni üsulu idi bu kinofilm. Elə bil ki, SSRİ qanunlarına qarşı böyükbir üsyan idi. Müstəntiq naziri, baş prokuroru hələs eləmişdi. Həmin vaxt SSRİ-də elə bir şey yox idi. Ona görə də Moskva həmin kinonun göstərilməsinə icazə vermirdi. Çünki SSRİ-nin bütün eybəcərlik lərini ortaya qoymuşdu bu kinofilm. Ulu öndər Heydər Əliyev bu kinofilmin göstərilməsi üçün çox böyük iş gördü. Ümumiyyətlə, bu kinofilmin ərsəyə gəlməsində 99,9 faiz məhz Heydər Əliyevin xidməti olmuşdu. Biz də onun bu işindən ruhlanıb belə bir kinofilm çəkdik. Bu kinofilm SSRİ-nin qara pərdəsini cırdı və nazirlərin, prokurorların bütün çirkin əməllərini ortaya qoydu. Ulu Öndər Heydər Əliyevin belə kəlamları var:"Rüşvətxoru, oğrunu qəhrəman etmək öz xalqına xəyanət etməkdir". "Dövlət o zaman sarsılar ki, cinayətkar cəzasız qalsın, təqsirsiz şəxs cəzalandırılsın". Məhz buna görə də xalq müasir Azərbaycanın meməri, qurucusu Heydər Əliyevi bu əməllərinə görə çox sevir və onu özünün əbədiyaşar Prezidenti hesab edir.

Ümumiyyətlə, mən istəyirəm burada bir əsl həqiqəti də deyim. Rüstəm İbrahimbəyovla Rasim Ocaqov bir-birini çox yaxşı tamalayırdılar. Elə bil yarı sözdən bir-birini başa düşürdülər. Bu, kino aləmində ssenaristlə rejissor arasında çox az olur. Bax, Azərbaycan kino tarixində belə tandem, belə cütlük olub və bununla da Azərbaycan kinosu çox şey qazanıb. Mən belə fikirləşirəm ki, bu gün Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində təhsil alan cavan aktyorlara, rejissorlara, operatorlara Rasim Ocaqovun yaradıcılığı mükəmməl səviyyədə keçilməlidi və onun çəkdiyi kinofilmlər lazım olan səviyyədə təhlil olunmalıdır ki, aktyorlar, rejissorlar, operatorlar onu özlərinə bir örnək bilsinlər. O, sözün həqiqi mənasında böyük fenomen idi. Nə yaxşı ki, mən onu tanımışam və onunla bir yerdə işləmişəm. Həmin illəri ömrümün qızıl illəri hesab edirəm. İmam Əlinin belə bir maraqlı kəlamı var: " Ən böyük dövlət ağıl, ən böyük yoxsulluq nadanlıq, ən böyük irs tərbiyə, ən böyük köməkçi vaxtında verilən məsləhətdir"...

Nə yaxşı ki, Azərbaycan kinosunda Rasim Ocaqov məktəbi olub. İnanıram ki, cavan rejissorlar onun yaradıcılığını dərindən öyrənib, bu məktəbi yaşadacaqlar.

Onu da vurğulayım ki, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Rasim Ocaq təqaüdü" təsis olunub və bu təqaüd ən yaxşı, savadlı, istedadlı, bacarıqlı tələbələrə verilir. Bu, doğrudan da alqışa layiqdir.

Ağalar İDRİSOĞLU,
Əməkdar incəsənət xadimi,
yazıçı, rejissor, dramaturq,
04-26 Avqust - 2023-cü il

Rasim Ocaqov - 90

dedi:

-Gördün, Zəfər. Mən sənə nə demişdim? Emin Sabitoğlu qaynar bir bulaqdır. O, istəsə daha yaxşı yaza bilər. Belə sənətkarları qorumaq lazımdı.

Emin Sabitoğlunun yazdığı "Cəmilə" mahnısı da Rasim Ocaqovun qızı Cəmilə

(Portret cizgiləri)